# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA İNSAN KİMLİYİNİ FORMALAŞDIRAN AMİLLƏR

**Elxan Quliyev**

*AMEA Elm Tarixi İnstitutu "Tarixşünaslıq və mənbəşünaslıq" şöbəsinin kiçik elmi işçisi*

*elkhan2000@yahoo.com*

*ORCID ID: 0000-0002-9226-8877*

**Giriş**

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi yaradıcılığı dünya ədəbiyyatında özünəməxsus yer tutur. Müdrik filosofun yaradıcılığı bəşəri təfəkkürün elə bir zirvəsidir ki, insanlar onu dərk edib, oraya yüksəlmək üçün bundan sonra hələ uzun yol qət etməli olacaqlar. İnsanlıq mənəvi cəhətdən o qədər inkişaf etməlidir ki, Nizaminin idealizmini, təfəkkür və kamillik zirvəsini dərk edə bilsin. Nə zaman dünyada ağıl və kamal hər şeydən üstün tutulacaq, o zaman da Nizami yaradıcılığı kəşf olunacaqdır. Belə görünür ki, bəşəriyyət hələ də bu zirvədən çox uzaqdadır. Əks halda dünyada var-dövlətini artırmaq hərisliyi ilə insanlığa yaraşmayan qırğınlar, yersiz müharibələr və talanlar olmazdı.

Hazırkı məqalədə Nizami Gəncəvi yaradıcılığında insanın fərdi və sosial kimliyi, ideal və kamil insan problemi araşdırılmışdır. Nizami Gəncəvi idealist bir mütəfəkkir olduğuna görə, öz şer sənətini də insanların "Mədineyi-cahilə"dən xilas olub "Mədineyi-fazilə"yə nail olmasına həsr etmişdir. Şairin sonralar "Xəmsə" adlanan beş poeması onun şəxsiyyətini tərənnüm edən saf bir aynadır. İnsanı kainatın əşrəfi, təbiətin nadir dürdanəsi hesab edən şair bəşər övladını xeyirxah və nəcib əməllərə, insana yaraşan ləyaqətli bir həyat tərzinə səsləyir. Dahi mütəfəkkir kainatda hər bir şeyin insan üçün yarandığını deyir və onun zəka gücü sayəsində bütün kainatı öz hökmü və ixtiyarına almağa qadir olduğunu vurğulayır. Odur ki, Nizami Gəncəvinin əsərləri kimliyin dərk edilməsi və ləyaqətin düzgün dəyərləndirilməsi məsələsində insanlara yardım edə bilər. Onun əsərlərində humanizm, sosial ədalət, əxlaq dərsi, təlim və tərbiyə, insanların gələcəyi kimi mühüm məsələlərə üstünlük verilmişdir. O, bütün bacarıq və istedadını insanların xoşbəxt yaşamasını təmin edə biləcək amillərin bədii formada ortaya qoyulmasına sərf etmişdir. Başqa ifadə ilə desək, bir çox şairlər yalnız vətənpərvərdirsə, Nizami Gəncəvi bundan əlavə həm də insanpərvər bir şairdir.

Nizami Gəncəvi yaradıcılığı varlıq aləmində Tanrıdan sonra insan faktorunu hər şeydən üstün tutmuş və şairin əsas hədəfi insan və insan taleyini düzgün işıqlandırmaqdır. Sirlər xəzinəsində əsas istiqamət olaraq əxlaq dərsləri, təlim tərbiyə, humanizm və insanpərvərlik kimi ali dəyərlərdən bəhs edilir. Əsərdə insan taleyi, onun müqəddəratı, insanlar arasında münasibətlər, gözəl yaşam tərzi və insan xoşbəxtliyi əsas mövzu olaraq təqdim edilmişdir. Şairin yaradıcılığında əsas və yekun məqsəd dünya fatehlərinə ibrət və əxlaq dərsi vermək, insanlarla insaflı davranış, tabeçilikdə olan təbəqələrə hörmət və qayğı ilə yanaşmaq, məmurların təvazökar olmaları, cəmiyyətin məhrum təbəqəsinə qarşı yönəlmiş istənilən zülm qarşısında müqavimət göstərmək və öz hüquqlarını tələb etmək kimi ali insani dəyərlərin aşılanmasından ibarətdir.

Dahi şairin başdan-ayağa hikmətli sözlərlə dolu olan "Sirlər xəzinəsi"ndə ümumilikdə bəşər övladına həqiqi insan olmaq dərsi verilir. İnsan nə özü başqasına güc nümayiş etdirməli, nə də ki, bu işin başqaları tərəfindən ona qarşı edilməsinə izin verməlidir. Başqa ifadə ilə desək, insan nə zülm etməli, nə də zülmə boyun əyməlidir. Bunun üçün o, gərək ədalətli və insaflı olmağa meyl göstərsin, nadürüstlük, namərdlik və yalanlardan uzaq olsun, gözəl əxlaqa yiyələnsin. Şairin fikrincə, əgər insanlar bu gözəllikləri özlərinə örnək götürsələr, dünya behiştə çevrilər. Dahi şair həmçinin insanların mərhəmətli və insansevər olması kimi ülvi dəyərlərə də böyük önəm verir. O, deyir ki, özünə qıymadığını başqalarına da rəva bilmə. Şair çalışqanlıq və zəhmətkeşliyi bütün uğurların, qələbələrin və başucalıqlarının açarı hesab edir. O, fəhlə və zəhmətkeş insanları yer üzünün ən şərəflisi, kənd təsərrüfatı ilə məşğul olan kəndliləri isə yer üzünün ən nəcib varlıqları hesab edir. Ümumiyyətlə, o, bəşərin əşrəf varlıq olmasını da məhz zəhmətkeşlik və çalışqanlıqla əlaqələndirir. Əks halda onu cəmiyyət üçün mənfi ünsür, tənbəl və zərərli varlıq kimi səciyyələndirir.

Nizami Gəncəvi öz əsərində müqayisəli şəklidə zəhmətkeş insanları işsizlərlə, fəhlələri isə iş verənlərlə qarşı-qarşıya qoyur, etinasız və əyyaş hökmdarları ədalətli padşaha çevirir. Şair bütün insan haqlarını müqəddəs hesab edir, insanları cinsindən, rəngindən, irqindən, tutduğu məsləkdən, əqidə və düşüncəsindən asılı olmayaraq qanunlar qarşısında bərabər hüquqlu olduqlarını önə çəkir. O, "Leyli və Məcnun" əsərində insanların diqqətini orta əsrlərdə iki qəlb aşiqinin azad seçim və hüquqlarının pozulması kimi mühüm məsələyə cəlb edərək tarixi məhkum edir, insanlara haqq etdikləri azadlıqların verilməsi tələbini ortaya qoyur.

Təqdim etdiyimiz məqalədə əvvəlcə şairin orijinalda olan bəzi beytlərini göstərərək onların ədəbi tərcüməsini vermiş, sonra isə həmin beytlərin hansı mənbələrdən qaynaqlandığını izah etməyə çalışmışıq. Bilindiyi kimi, şairin insan şəxsiyyəti ilə bağlı irfani və dini düşüncə dairəsi o qədər zəngin və genişdir ki, bəzən bu fikirləri ədəbi tərcümələrə sığışdırmaq mümkün olmamışdır. Məhz bu səbəbdən də hazırkı məqalədə bəzi beytlərin filoloji tərcüməsi verilərək daha geniş, eyni zamanda sadə dildə şərh edilməsinə üstünlük verilmişdir. Bu tərcümə üsulunun əsas məqsədi oxucuların mətnin orijinal mənası ilə tanış olmasını təmin etməkdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Nizami Gəncəvi islam maarifi və onun əsas mənbəyi hesab edilən Quranı-Kərim barədə zəngin məlumata malik olduğuna görə, öz yaradıcılığında ondan geniş formada istifadə etmişdir.

**Nizami Gəncəvi yaradıcılığında insan fenomeni və fərdi kimlik problemi**

Nizami Gəncəviyə görə, insan vücudu iki ünsürdən, cisim və ruhdan təşkil olunmuşdur. Bu iki ünsürdən hər birinin özünəməxsus xüsusiyyət və tələbatları vardır. İnsan bu iki ünsürün fərqli tələbatını hiss edərək daim iki növ istək arasında seçim etməli olur. Əgər insan bu iki fərqli istək və tələbatın hər hansı birində orta yoldan çıxıb etidalı pozarsa, bu hərəkət onun süqutu ilə nəticələnə bilər.

Dahi şair çalışır ki, insanın həqiqi kimliyini ona tanıtdırsın və bununla da onu özünün əsas təbiətinə qaytarsın. Onun fikrincə bu iş yalnız dünya istəklərindən əl çəkib, mənəvi dəyərlərə üz tutmaqla baş tuta

bilər. Əlbəttə insan bu işi ifrata varmadan və orta yolun (etidal) şərtlərinə riayət edərək görməlidir. Nizamiyə görə, insan vücudunda bir-birinə zidd olan iki ünsür, yəni cisim və ruhdan doğan istəklər arasında daimi mübarizə cərəyan edir. Bu qüvvələrdən biri onu səadətə, digəri isə bədbəxtlik və rəzalətə doğru aparır. Şair öz beytlərində çalışır ki, bəşərin ilkin fitrətinə uyğun olan yolu ona göstərib, onun ali varlıq aləminə bağlı olan ruhunu əsil mənşəyinə qaytarsın.

Tanrı insanı ilk yaradılışda torpaqdan yaratdı və onu yer üzündə Öz xəlifəsi elan etdi və bu işi gördükdən sonra Özünü "Əhsənül-xaliqin" (yaradanların ən gözəli) sifətilə öydü.[1] Amma yaranmışların əşrəfi olan bu varlıq bəzən dünyanın naz-nemətləri ilə qarşılaşdığı zaman özünün həqiqi kimliyindən uzaqlaşır və özünü sanki ölməz bir varlıq bilib Tanrısını unudur. Nizami Gəncəvinin ədəbi irsi özünün rəngarəngliyi ilə vahid bir hədəfə doğru, yəni bəşəri təfəkkürün inkişaf etdirərək ilahi mərifətə çatması istiqamətində hərəkət edir.

Dahi şairin "Xəmsəsi"ndə insanın cisim və ruhdan ibarət olduğuna böyük diqqət yetirilmişdir. Şair çalışır ki, şairanə sözlərlə, bəzən də tarixi dastan və məsəllərdən istifadə edərək insan varlığının əsil simasını şəffaf şəkildə təsvir etsin. İnsan vücudunun cisim və ruhdan ibarət olması məsələsi şairin daim nəzər diqqətindədir və bununla da o, yaradılışdan olan hədəfi bəyan etməyə çalışır. O, zahiri baxımdan insanın torpaq və bir damcı sudan yaradıldığını düşünür və bununla bağlı yazır:

*نه گوینده خاکی کس آرد به دست        نه بر آب نقشی توان نیز بست*
*جز او کیست کز خاک آدم سرشت        بر آب این چنین نقش داند نوشت*[2]

*Nə kimsə torpaqdan danışan bir varlıq əldə edə,*

*Nə də kimsə su üzərində belə bir rəsm əsəri yarada bilər.*

*Kimdir Ondan başqa torpaqdan Adəm yarada bilən,*

*Və su üzərində belə bir rəsm əsəri çəkə bilən? (filoloji tərcümə - E.Q)*

Amma şairə görə, insanın həmin maddi çöhrəsinin arxasında dayanan nurani cəhət daha çox əhəmiyyət kəsb edir və onu başqa varlıqlardan ayırır, ona özünəməxsus cəhətlər bəxş edir. Şair öz şeirlərində insana onun varlıq aləmində özünəməxsus və üstün bir kimliyə malik olduğunu bildirməyə çalışır :

*ای به زمین بر چو فلک نازنین        ناز کشت هم فلک و هم زمین*
*کار تو زانجا که خبر داشتی        برتر از آن شد که تو پنداشتی*[3]

*Sən ey yer üzünə endirilən o nazənin varlıq,*

*Həm asiman, həm də yer üzündəkilər sənin nazını çəkir.*

*Səninlə bağlı bu işdən özün də xəbərdar idin,*

*Amma, iş şən düşündüyündən daha üstün old (filoloji tərcümə - E.Q)*

Nizami Gəncəvinin baxışında insanın dəyəri onun maddi və cismani cəhətindən daha üstündür və bir çox ariflər kimi o da insanın "Tanrının bütün gözəl sifətlərinin aynası" ola biləcəyinə inanır. Şairin yaradıcılığında mərifətin kəsb edilməsi kimi ali məqsəd insan yaradılışının son hədəfi kimi göstərilmişdir. O, insanları mənəvi təkamülə çata bilmələri üçün öz nəfsani istəklərindən vaz keçmək və həyatın aldadıcı naz-nemətlərinə bel bağlamamağa səsləyir. Şair

[1] Muminun: 14
[2] https://ganjoor.net/nezami/5ganj/kheradname/sh1/ (خردنامه، بخش ۱ – به نام ایزد بخشاینده)
[3] https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار، بخش ۳۲ – مقالت هفتم در فضیلت آدمی بر حیوانات)

insan nəfəsini kəsən nəfsin zindanından qurtuluş anını yorulmuş insan ruhuna yeni həyat bəxş edən bir nəfəsə bənzədir:

*هر که چو پروانه دمی خوش زند      یک تنه بر لشگر آتش زند*

*یک دو نفس خوش زن و جانی بگیر      خرقه درانداز و جهانی بگیر*[1]

*Kim pərvanətək xoş bir nəfəs çəkərsə,*

*Tək başına özünü atəşin qoşununa vurar*

*Bir-iki xoş nəfəs al, cana gəl,*

*Çiynindən xirqəni at, cahanı fəth eylə (filoloji tərcümə - E.Q)*

Dahi Nizami Gəncəvi insan ruhunu bir xəzinə, cismini isə həmin ruha vurulmuş bir tilsim hesab edir. Şairin fikrincə həmin ali ruhu oyatmaq üçün mütləq bu tilsimi qırmaq lazımdır. Bu iş isə yalnız "mənəm-mənəmliyi" aradan qaldırmaqla gerçəkləşə bilər və o zaman insan həyatı aydınlaşar və onun kamala doğru hərəkətinə zəmin yaranmış olar:

*عقل تو جانی است که جسمش تویی      جان تو گنجی که طلسمش تویی*

*کی دهد این گنج تو را روشنی      تا تو طلسم در او نشکنی؟*[2]

*Sənin ağlın bir diri candır, onun cismi sən özünsən*

*Sənin canın bir xəzinədir, onun da tilsimi sən özünsən*

*Axı kim sənin xəzinəni işıqlandıra bilər,*

*Əgər sən özün onun tilsimini qırmasa (Filoloji tərcümə - E.Q)*

Göründüyü kimi, şair insanları dərin təfəkkürə, maddi dünyanın lüzumsuz qayğı və arzularından xilas olmağa çağırır. O, bildirir ki, insan ağlının ziyasını söndürən və ruhunu tilsimə salan onun ifrat dərəcədə maddi dünyaya bağlanıb, dərin düşüncə və mənəvi aləmə göz yummasından irəli gəlir.

*Ey bübüli-qüdsi, nə giriftari qəfəssən,*

*Sındır qəfəsi, tazə gülidstan tələb eylə (İmadəddin Nəsimi).*

Dahi Nizamı varlıq aləmini və insan yarıdılışını əbəs olmadığını vurğulayaraq yazır:

*این هفت حصار برکشیده      بر هزل نباشد آفریده*

*و این هفت رواق زیر پرده      آخر به گزاف نیست کرده*[3]

*Ucaldılmış bu yeddi hasar çərçivəsində olan cahan, zarafat gəlməsin sənə. Bu pərdə altında olan yeddi eyvan boşuna yaradılmamışdır (filoloji tərcümə - E.Q).*

Şairin bu beyti Quranı-Kərimin " ربّنا ما خلقت هذا باطلا" ("Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan!)[4] ayəsindən qaynaqlanır və bununla da o, insanların diqqətini əbədi həyata yönəltməyə çalışır. Çünki axirətini düşünən insan ilk növbədə cəmiyyət üçün faydalı olmağa çalışacaq, təmənnasız xeyirxah işlər görəcək və gördüyü işlərdən zövq alacaqdır. Bütün bu sadalanan əxlaqi keyfiyyətlər isə hər bir insan cəmiyyətinin düzgün inkişafı üçün ən zəruri amillərdir.

Nizamiyə görə, insan öz tükənməz potensiyası ilə bütün digər varlıqlardan fərqlənir və əgər o, öz davranışını, düşüncə və zıkasını adına layiq şəkildə formalaşdırarsa, dünya aləmi onun sayəsində gözəlləşər və digər varlıqlar onunla fəxr edərlər. Dahi şair insanda olan dərin düşüncə, zəka, elm və hünərə qəlbən inanır və məhz bu cəhətdən də onun başqa varlıqlardan fərqli olduğunu düşünür. Odur ki, Nizami poemalarında elmin fəzilət və üstünlüklərindən söz açır və insanın üstün bir varlıq olmasını da məhz elm və hünərlə əlaqələndirir. Şair öz şeirlərində insan

---

[1] https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار، بخش ۵۰ – مقالت شانزدهم در چابک روی)

[2] https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار، بخش ۵۲ – مقالت هفدهم در پرستش و تجرید)

[3] https://ganjoor.net/nezami/5ganj/leyli-majnoon/sh3/ (لیلی و مجنون: بخش ۳ – برهان قاطع در حدوث آفرینش)

[4] Ali-İmran: 191

vücudunun həm yerə, həm də asimanlara aid olması məsələsinə aydınlıq gətirmək və bu həqiqətin üzərindəki pərdələri qaldırmağa çalışmışdır. Şair insanın zahiri və cismani cəhətinə deyil, onun daha üstün cəhəti hesab edilən mənəvi və ruhani tərəfinə önəm verir və öz şeirlərində daha çox insanın bu cəhətini təsvir edir.

*کفی خاکم و قطره ای آب سست　　ز نر ماده ای آفریده نخست*

*ز پروردگیهای پروردگار　　به آنجا رسیدم سرانجام کار* [1]

*Bir ovuc torpaq və bir damcı sudan,*

*Kişi-qadın xəlq etdi əvvəlcə Yaradan.*

*Xaliqin yaratdığı varlıqlardanam,*

*İşin sonunda məqsəd yerinə yetişə bildim. (Filoloji tərcümə - E.Q)*

Ümumi şəkildə götürsək, Nizamiyə görə insan varlıq aləminin mərkəzinda dayanır və digər yaranmışlar ona tərəf və onun hərəkət etdiyi cəhətə doğru hərəkətdədir. Şair öz ədəbi yaradıcılığında bütün imkanlardan bəhrələnərək insanın diqqətini insan vücudunun mənəvi və ruhani cəhətinə yönəltmək və bununla da onu həqiqi kamal və səadətə çatdırmaq istəyir. Onun fikrincə, insan mənəviyyatı güzgü kimidir və bu güzgü dünyaya hərislik, şəhvani hislərə qul olmaq və günahların nəticəsində pas atmağa başlayır və bunun da nəticəsində Tanrının ona təyin etdiyi orpitdən çıxır və öz fitrətinin tam ziddinə əməl etməyə başlayır. Nizami Gəncəvi yaradıcılığı insan mənəviyyatının güzgüsü üzərində yaranmış bu pasları təmizləmək missiyasını yerinə yetriir.

Nəzərə alsaq ki, "kimlik" adlanan fenomen dinamik bir varlıqdır, odur ki, "Xəmsə"də canlandırılan kimliklər də bu qaydadan müstəsna deyillər. Bu əsas qayda ilə yanaşı ruhən idealist olan şair həm də insanı həqiqi kamala çatdırmaq niyyətindədir. Bu səbəbdən də poemalarda göstərilən obraz və şəxsiyyətlərin kimliyi daim əsaslı şəkildə dəyişməkdədir. Şairin əsas məqsədi onları Əflatunun "mədineyi-fazilə"sinə çatdırmaqdır. Misal olaraq qeyd etmək olar ki, "Xosrov və Şirin" poemasında Xosrovun şəxsiyyət və kimliyi elə bir formada dəyişir ki, sonda Şirin poema boyu onun şəxsiyyəti ilə ziddiyyət təşkil edən həmin kimlikdən ötrü fani dünyanı tərk edib əbədi aləmə üz tutmağa üstünlük verir.

Nizami Gəncəvi öz ədəbi irsində təqdim etdiyi obrazların kimliyini yaradan zaman öz bilik və inanclarından təsirlənməyə bilməzdi. Hətta bəzən onun əsərində qəhrəmanlar insanlara öyüd-nəsihət verən müdrik kimlik olaraq təqdim olunur və sanki Nizami özü onun kimliyini ələ almışdır. Başqa ifadə ilə desək, "Xəmsə"dəki qəhrəmanlar əslində elə şairin özüdür. Deməli, "Xəmsə"dəki qəhrəmanları istədiyi tərəfə yönəldən, ideal və kamil insan obrazını canlandırmaq məqsədilə onların kimliyini dəyişdirən şəxs elə Nizaminin özüdür.

Nizami Gəncəvi öz "Xəmsə"sində müxtəlif xüsusiyyətlərə malik insanlardan bəhs edir və müxtəlif kəlmələrin məna yükündən istifadə edərək öz zehnindəki qəhrəmanların eynisini canlandırmağa çalışır. Bu səbəbdən "Xəmsə"də rastlaşdığımız ideal və kamil insan obrazlarının kimliyi bəzən dini (din alimi), bəzən fəlsəfi (filosof), bəzən də yer üzünə məxsus məcazi eşqi öz vücudunda daha ali dərəcədə formalaşdıran aşiqanə və arifanə kimliyi özündə tərənnüm edir.

Nizami Gəncəvi çalışır ki, fərdi baxımdan ali düşüncəli, hər işdə balansı qoruyan və ictimai baxımdan cəmiyyət üçün

[1] https://ganjoor.net/nezami/5ganj/kheradname/sh39/
(خردنامه، خبش 39 – سوگند نامه اسکندر به سوی مادر)

faydalı olan bir insan obrazları təqdim etsin. Çünki şair ideal bir cəmiyyət qurmaq üçün hikmət və gözəl əxlaqa sahib olan insanlar axtarışındadır.

**Nizami Gəncəvinin dini-mənəvi düşüncələrə, ağıl və qəlbə verdiyi önəm**

Dahi şair insanları cani-dildən Tanrıya bağlı olub, bununla da dünya möhnətindən xilas olmağa çağırır. O, səmavi dinlərə etiqad məsələsini önə çəkir və bildirir ki, insan öz həqiqi kimliyini düzgün dərk etmək istəyirsə, mütləq bu yolu seçməlidir.

*مرکب این بادیه دینست و بس　　　چاره این کار همین است و بس*[1]

*Bu səhranın köhləni təkcə dindir, yalnız din,*

*Yalnız odur çarəsi bu qədər müşküllərin*[2]

Mövzu ilə bağlı Qurani-Kərim ayələrinin birində buyurulur: “ورایتَ الناسَ يدخلونَ فی دينِ اللهِ اَفواجاً” (İnsanların dəstə-dəstə Allahın dininə (islama) daxil olduqlarını gördüyün zaman”.[3] Həmçinin: “Ya Rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa taparaq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini (Onun yaratdığı tövhid dini olan islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti bilməzlər. (Allah bütün insanları xilqətcə müsəlman – təkallahlı yaratmışdır, lakin ata-anaları onları başqa dinlərə sövq etmiş, yaxud yaşa dolduqda öz nadanlıqları üzündən batil dinlərə - bütpərəstliyə uymuşlar”.[4]

Nizami Gəncəvi baxmayaraq ki, ağılı Tanrının zatını dərk etməkdə aciz hesab edir, amma onu digər varlıqlardan fərqli və üstün edən cəhətin də məhz ağıl olduğunu hesab edir.

Dahi şairin fikrincə, ağıl, bilik və zəka insanın dostu və köməkçisidir. Şairə görə, kimin ağılı varsa, onun hər şeyi vardır.

*هر کسی را نهفته یاری هست　　　دوستی هست و دوستداری هست*

*خرد است آن کز او رسد یاری　　　همه داری اگر خرد داری*

*هر که داد خرد نداد داد　　　آدمی صورت است و دیو نهاد ی*[5]

*Hər bir şəxsin gizli bir dostu vardır,*

*O həm dostdur, həm də gözəl dostluq edir.*

*O dost ağıldır, ondan sənə yardım gələr,*

*Əgər ağlın olarsa, demək hər şeyin vardır.*

*Kim ağılın haqqını tanımayıb, ona lazımi dəyər verməzsə,*

*Zahirdə insandır, batində isə bir div xislətli varlıqdır. (Filoloji tərcümə* - *E.Q)*

Fransalı filosof Dekart insan kimliyinin müəyyən edilməsində ağılın üstünlüyünə toxunaraq yazır: “mən düşünürəmsə, deməli varam”. Mövlana Cəlaləddin Rumi isə yazır:

*ای برادر تو همان اندیشه ای　　　مابقی خود استخوان و ریشه ای*

*Ey qardaş! Sən fikir və düşüncədən ibarət olan bir varlıqsa,*

Vücudunun yerdə qalan hissəsi isə yalnız sümük və toxumalardan ibarətdir.

Nizamiyə görə, insan müsbət əxlaqi keyfiyyətləri əldə etmək, fəzilətli sifətlərə yiyələnmək və həqiqi səadətə çatmaqdan ötrü ağıl çırağının ziyası altında hərəkət etməlidir. Amma bütün bunlara baxmayaraq şair insanı kamilliyə doğru sövq edən əsas qüvvənin qəlb olduğunu söyləmişdir:

*نور آدمیت ز سهیل دل است　　　صورت و جان هر دو طفیل دل است*

[1] https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار، خبش ٣٦ – مقالت نهم در تک مونات دنیوی)

[2] Nizami Gəncəvi, Sirlər xəzinəsi, “Lider” nəşriyyatı, Bakı - 2004, 140.

[3] ən-Nəsr: 2

[4] ər-Rum: 30

[5] https://ganjoor.net/nezami/5ganj/7peykar/sh6/ (هفت پیکر – بخش ٦: ستایش سخن و حکمت و اندوز)

*چون سخن دل به دماغم رسید        روغن مغزم به چراغم رسید* [1]

*İnsanın nuraniliyi ulduz kimi parlayan qəlbindən qaynaqlanır,*

*Həm surət (zahiri görünüş), həm can (ruh), hər ikisi də qəlbin fərmanındadır*

*Elə ki, qəlbimin sözü dilimə, damağıma yetişir,*

*O zaman beynimin yağı da çırağıma yetişir.    (filoloji tərcümə-E.Q)*

Dahi şairin fikrincə, sağlam qəlbə sahib olan insanlar elə bir məqama yetişirlər ki, bütün vücudları pak və lətif bir gövhərə çevrilir. Göründüyü kimi, Nizami bu cəhətdən tam irfani bir şairdir və o, ağıldan daha çox qəlbə və qəlbin imkanlarına üstünlük verir. O, bütün yaradıcılığında insan kimliyini tanıtmaq üçün həqiqi eşq ilə döyünən qəlbindən qüvvət alır.

*ما که ز صاحب خبران دلیم        گوهرییم ارچه ز کان گلیم*[2]

*Biz qəlbin xəbərlərini söyləyənlərdənik,*

*Qiymətli gövhərik, baxmayaraq ki gil torpaqdan yaranmışıq    (filoloji tərcümə-E.Q)*

**Nizami Gəncəviyə görə, ölüm dünyapərəstliyin qarşısını alan amildir**

Dahi şairin ədəbi yaradıcılığında insanları haqq olan fiziki ölümü yada salıb, onlara verilən ömrü yalnız dünya qayğıları və ifrat arzulara həsr etməməyə çağırır. Onun fikrincə, insan fikirləşsə ki, gec-tez bu dünyanı tərk etməli olacaq, o zaman onun dünya sevgisi azalacaq və daha ali məqsədlərə qulluq edib, axirət dünyası üçün hazırlıqlar görəcəkdir. Şair öz şerilərində ölümün haqq olduğunu insanlara yetirmək üçün, bəşər tarixində ən qüdrətli padşah olan Süleyman Peyğəmbəri də misal göstərir:

*ملک سلیمان مطلب کان کجاست        ملک همان است سلیمان کجاست*

*خاک همان خصم قوی گردنست        چرخ همان ظالم گردن زنست*

*صحبت گیتی که تمنا کند        با که وفا کرد که با ما کند*

*خاکشد آنکسکه برین خاک زیست        خاک چه داند که درین خاک چیست*

*غافل بودن نه ز فرزانگیست        غافلی از جمله دیوانگیست*[3]

*Süleyman mülki umma. Nəfs, tamah xətadır,*

*Mülkü durur...mülkədar özü yer altındadır.*

*Torpaq-qurban gözləyən boynuyoğun, imansız,*

*Fələk- boyunlar vuran bir cəllad ki, amansız.*

*Bu dünyanı dördəlli tutanlara fikir ver,*

*Kimə vəfa qıldı ki, vəfa qılsın bizə yer?*

*Torpaqda yaşayanlar dönüb torpaq oldular,*

*Min canı qucduğunu hardan bilsin bir məzar?*

*Qəflətdə ömr etmək məgər kişilikdir?*

*Qafillər Yer üzündə divanələr kimidir.*[4]

Göründüyü kimi, Nizami Gəncəvi yuxarıda qeyd edilən sonuncu beytdə ömrünü qəflətdə keçirənləri divanə adlandırır və biz də bilirik ki, divanəliyin özü bir növ xəstəlik hesab olunur. Şair burada insanlarda müşahidə olunan xəstə psixologiyanı tam başqa bir aspektdən açıqlamağa çalışır. Bizə məlumdur ki, tibb elmində həkimlərin bəzən xəstə hesab etmədikləri insanları Qurani-Kərim xəstə və yaxud ağılsız adlandırılır. Məsələn, Quranda kafir, münafiq və zülmkar insanlar xəstə hesab olunur və onların müalicəyə ehtiyaclı olduqları təkidlə vurğulanır. Halbuki müasir tibb elmi baxımından bu kateqoriyaya aid olan insanlar psixoloji baxımdan xəstə hesab olunmurlar.

1 https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار – بخش ۱۵ » در توصیف شب و شناختن دل)

2 https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار – ٣٦ : مقالت نهم در تک مونات دنیوی)

3 https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار، بخش ٢٤ – مقالت سوم در حوادث عالم)

4 Gəncəvi Nizami, 2008: 103-104

Qurani-Kərimə görə qeyd olunan xəstəliklərin qəti əlacı Tanrıya iman gətirmək və etdikləri zülmdən əl çəkmələrindədir.

Qurani-Kərimə görə aşağıdakı xüsusiyyətlər şəxsin xəstəliyə düçar olduğunun göstəricisidir: küfr, nifaq, zülm etmək, İlahi yoldan azmaq, daim günah işlər görmək, zinakarlıq, həsəd və kin-küdurət saxlamaq, təkəbbür, xüdbinlik, eqoizm, daim şəkk etmək və hərdəmxəyal olmaq, Tanrıya, dünya və digərlərinə qarşı bədbin olmaq, ümidsizlik, nemətlərə naşükür olmaq, sui-zənn və etimadsızlıq, vəsvəsə, başqalarını təhqir etmək adəti, əyri yollarla öz istəklərini təmin etmək, daşürəklilik, həqiqətləri olduğu kimi dərk etməmək və s. Qeyd etmək lazımdır ki, müqəddəsi kitab bütün bu xəstəlikləri qəlbin xəstəliyi adlandırır: *"Yoxsa qəlblərində mərəz (şəkk və nifaq mərəzi) olanlar elə güman etdilər ki, Allah onların (ürəklərindəki) kin-küdurətlərini zahirə çıxarmayacaqdır?!"*[1]

*Şair mövzunu davam etdirərək başqa bir beytdə yenə yazır:*

*Bu yolu sağ-salamat gedə bilər hansı ər?*
*Ölümünü uzaqdan öncə duyub sezənlər.*
*Əylənirsən həyatda, itirmisən ölçünü,*
*Oyuncaqmı sanırsan vahid, bircə ömrünü?*[2]

**Nizami Gəncəvi yaradıcılığında qadın kimliyi**

Nizami Gəncəvi yalnız şeir və şairlik sənətində deyil, bəlkə onun bütövlükdə varlıq aləmi və insan fenomeninə baxışı öz dövrünün ənənəvi dünya görüşü ilə fərqlənirdi. Bu isə dahi mütəfəkkirin insan həyatına fəlsəfi baxışla yanaşması və dərin düşüncəsindən irəli gəlirdi. Məlum olduğu kimi, XII əsrdə Azərbaycan cəmiyyətindəki qadınlar həmin dövrün tələblərinə uyğun mövqeyə sahib olmuşdur. Halbuki Nizami Gəncəvi yaradıcılığında qadın diqqət mərkəzinə gətirilmiş və onun bir çox dastanlarının mərkəzində məhz, qadınlar dayanmaqdadır. Belə ki, şair yaratdığı dastanların bəzisində qadını dilbər məşuq kimi, bəzilərində hökmdar və bəzilərində isə hər iki obrazda təqdim etmişdir. Az şair vardır ki, öz dövründə qadına bu dərəcədə hörmət və ehtiramla yanaşmış olsun. Bu baxımdan Nizami Gəncəvi öz dövrünün qadın haqlarının müdafiəsinə qalxmış humanist ziyalılardan biri hesab olunur. Dünya görüşünün mərkəzində insan fenomeninə yer verən şairə "antroposentrik" şair deyilir. Belə şəxsiyyətlər cəmiyyətdə hakim olan dünyagörüşünün diktə etdiyi fikirlərdən fərqlənən dəyərlərlə çıxış etməyi bacarırlar. Şair öz ədəbi irsində insanları passiv düşüncə tərzini kənara qoyaraq aktiv və bəsirətli düşüncə tərzinə keçib, onu əhatə edən aləmə öz təsirini göstərməyə çağırır.

"Xəmsə"dəki qadın obrazlarının əksəriyyəti şairin öz düşüncəsində yaratdığı obrazlarıdır və biri digərini təkrarlamır. Nizami Gəncəvi böyük cəsarət göstərərək bəzi obrazları dastanın orijinalında olduğu kimi deyil, öz dünyagörüşünə uyğun olaraq təqdim etmişdir və o, bu sahədə böyük uğur qazanmışdır.

*پری دختی، پری بگذار، ماهی — به زیر مقنعه صاحب کلاهی*
*شب افروزی چو مهتاب جوانی — سیه چشمی چو آب زندگانی*[3]

*Pərisən, yox, pəri deyil aysan,*
*Örpək altında papaq sahibisən.*
*Cavan ay kimi gecə qaranlığını işıqlandırırsan,*

---

[1] Məhəmməd: 29
[2] Gəncəvi Nizami, 2008:104
[3] https://ganjoor.net/nezami/5ganj/khosro-shirin/sh18/ (خسرو و شیرین، بخش ۱۸- حکایت کردن شاپور از شیرین و شبدیز)

*Qaragözlüsən, su kimi həyat verənsən (filoloji tərcümə -E.Q).*

Nizami Gəncəvi yaradıcılığında qadın şəxsiyyəti ilə bağlı bir məqam bütün qadın obrazlarında müşahidə olunur və o da, bundan ibarətdir ki, qadın nə qədər ağıllı və tədbirli olursa olsun, bütün bunlardan əvvəl gərək gözəl və zərif olsun. Ümumiyyətlə "Xəmsə"də ağıllı və bacarıqlı, amma çirkin olan qadın obrazına rast gəlinmir.

Şairin yaradıcılığında qadınlar yüksək əxlaqi keyfiyyətlərin daşıyıcısı kimi göstərilmişdir və onların davranışında qadın incəliyi, qadın zərifliyi gözə çarpır. Nizamı Gəncəvinin yaradıcılığında qadın obrazları ailələrinə qəlbən bağlı, həyalı və düşkünlükdən tam uzaq bir qadın obrazlarıdır.

Nizami Gəncəvi qadına ölkə idarəçiliyində ən yüksək məqama ucala bilən, eləcə də ağıla aid bütün hikmətləri mənimsəməyə qadir olan bir varlıq kimi baxır:

*قوی رای و روشن دل و نغزگوی خوی     فرشته منش بلکه فرزانه*

*هزارش زن بکر در پیشگاه     به خدمت کمر بسته هر یک چو ماه*

*زنان داشتی رایزن در سرای     به کدبانویی فارغ از کدخدای*[1]

*Güclü, iradəli, qəlbinur və gözəl danışan,*

*Mələk xislətli, ağlı özünə yaraşan.*

*Min-min qadın görünür ki cahanda,*

*Hər biri aytək xidmətkardır meydanda.*

*Saraylarda müşavirdir xanımlar,*

*Kəndxüdasız kəndə sahib qadınlar. (filoloji tərcümə -E.Q).*

**Həkim Nizami insan adlı varlığı söz hesab edir**

Nizami Gəncəvi öz beytlərinin birində bildirir ki, ilk xəlq olunan varlıq və xilqətin ilk dəfə cilvələndiyi fenomen sözdür:

*جنبش اول که قلم برگرفت     حرف نخستین ز سخن درگرفت*

*پرده خلوت چو برانداختند     جلوت اول به سخن ساختند*

*تا سخن آوازه دل در نداد     جان تن آزاده به گل در نداد*

*در لغت عشق، سخن جان ماست     ما سخنیم این طلل ایوان ماست*[2]

*İlk dəfə tərpənəndə sözdən güc aldı qələm,*

*Sözdən doğuldu ilk hərf... şahiddir bütün aləm.*

*Xəlvət pərdəsini ki qaldırdılar, atdılar,*

*Öncə söz cilvələndi. Sözdən can yaratdılar.*

*Sözdən bir səs, bir nəfəs gəlməmiş... inan mənə:*

*Can girmədi palçıqdan xəlq olunmuş bədənə.*

*Söz – canımızdır. Eşqin lüğətinə baxsana!*

*Biz sözük, gövdəmizsə yalnız xarabaxana!*[3]

Nizaminin bu beyti Şərq dünyasının təfəkkür tarixində olan ən ecazkar və gözəl sözlərdən biridir. Şair insan vücudunu söz, onun fiziki bədənini isə həmin sözün zərfi hesab edir. Şair bununla da şairləri Peyğəmbərlərin cərgəsinə daxil edir və onları Peyğəmbərlərdən sonra gələn varlıqlar kimi dəyərləndirir. Çünki, onun fikrincə şairlər Peyğəmbərlərin yolunu və sünnəsini davam etdirməklə söz yaratmaq kimi ali bir mərtəbəyə nail ola bilirlər. Şairlər sözü Peyğəmbərlərdən alır, özlərini bu sözlərin vasitəsi ilə tərbiyələndirir, ad qazanırlar sonra isə Tanrı sözünü alan Peyğəmbərin kəlamları

---

1 https://ganjoor.net/nezami/5ganj/sharafname/sh33/ (شرفنامه، بخش ۳۳ – داستان نوشابه پادشاه بردع )

2 https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار، بخش ۱۳ – گفتار در فضیلت سخن )

3 Gəncəvi Nizami, 2004:57-58

sayəsində söz və şeir sənəti yaradırlar. Şairin şeiri elə onun vücudunun eyni özüdür.

هر رطبی کز سر این خوان بود          آن نه سخن، پاره ای از جان بود[1]

*Şairin süfrəsində şirin xurmalar ki var,*

*Xurma deyil, bəlkə canımızın parçası (fololoji tərcümə - E.Q)*

Nizaminin fikrincə, şairanə söz hər bir şairin ruhu və canının bir parçasıdır. Şairlər din və mənəvi aləmdə müəyyən bir yolu qət etdikdən (seyri-süluk) sonra söz yaratma mərhələsinə qədəm qoyub, bu sözləri insanlara ərməğan edərək onları söz süfrəsi, söz ziyafətinə dəvət edirlər. Bununla da şairlər söz yaratmaqla insanlara Peyğəmbərsayağı mənəvi atalıq qayğısı göstərirlər. Beləliklə dahi mütəfəkkir şairləri peyğəmbərlərin cərgəsinə ucaldır:

پرده رازی که سخن پروریست          سایه ای از پرده پیغمبریست

این دو نظر محرم یکدوستند          این دو چه مغز آنهمه چون پوستند

پیش و پسی بست صف کبریا          پس شعرا آمد و پیش انبیا[2]

*Sözdoğanlar – nur saçan peyğəmbərin kölgəsi,*

*Ərzin işıq pərdəsi, haqqın yanar nəfəsi.*

*Şair ilə Peyğəmbər – bir nigarın məhrəmi,*

*Peyğəmbərlə şair haqq, qalanlar haq görkəmi.*

*Mətanət meydanında kimlər tutdu gör səfi,*

*Əvvəlcə Peyğəmbərlər, sonra şairlər səfi!*[3]

"Şair əvvəl gərək yol əhli olsun" deyir Nizami Gəncəvi. O, ilahi Peyğəmbərlərdən sözü təhvil almalı və onun vasitəsilə özünü tərbiyə etməli, sonra söz yaratmalıdır:

تا نکند شرع تو را نامدار          نامزد شعر مشو، زینهار

شعر تو از شرع بدانجا رسد          کز کمرت سایه به جوزا رسد[4]

*Şəriət elmi səni adlı-sanlı bilməsə,*

*Girişmə şairliyə, uyma yırtıcı nəfsə*

*Şəriət elmindədir şairin şair gücü,*

*Söz de ki, kəmərindən nur alsın Cövza bürcü*[5]

Nizaminin bu beytlərini əsas götürərək deyə bilərik ki, şair əvvəlcə öz sözünü, yəni öz vücudunu Tanrının sözünə və şəriətə təqdim və ərz etməli, öz vücudunun mətn və məzmununu redaktə və təshih edərək başqa şairlərdən tam fərqli, Tanrının sözünə yaxın bir söz yaratmalıdır.

Nizami Gəncəvinin ədəbi irsində insan şəxsiyyətinin düzgün formalaşmasında böyük rol oynayan dürüstlük və riyakarlıqdan uzaq yaşam tərzinə ciddi önəm verilmişdir. Dahi şair islam əxlaqında "Ya olduğun kimi görün, ya da göründüyün kimi ol" prinsipini rəhbər tutaraq yazır:

*Canavar dişlisənsə, Yusif görkəmli olma!*

*Aslan ürəklisənsə, süfrə pişiyi olma!*[6]

Şair insanlarda bəyənilən digər bir əxlaqi keyfiyyəti özündə tərənnüm edən beytlərin birində "öz dərdinə özün yiyə çıx" prinsipindən çıxış edərək yazır:

*İç öz ciyər qanını, suya bənzə, ey oğul!*

*Yalnız öz ürəyini kabab edən ataş ol!*[7]

Həmn mövzu ilə bağlı həzrət Əli (ə) buyurmuşdur: "وَ رَضِیَ بالذّل مَن كَشَفَ عن ضُرّه" (Hər kim öz ürək süfrəsini və dərdini (heç bir faydası olmadan ona-buna) açarsa, özünün xar olmasına razılıq vermiş olar).

---

1 https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار، بخش ۱٤ - برتری سخن منظوم از منثور )

2 https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار، بخش ۱٤ - برتری سخن منظوم از منثور )

3 Gəncəvi Nizami, 2004: 60

4 https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh32/ (مخزن الاسرار، بخش ۱٤ - برتری سخن منظوم از منثور )

5 Gəncəvi Nizami, 2004: 62-63

6 Gəncəvi Nizami, 2004: 116

7 Gəncəvi Nizami, 2004: 116

Dahi şair öz şeirlərində insanın daxili aləmi və könül məsələsinə daim diqqət yetirmiş, onun Məbudla razi-niyaz edib öz ruhunun səfa və lətafətini artırmaq zərurətini önə çəkmişdir:

*Səndən savay heç kəsdən mehr ummadı qəlbimiz,*

*Heç bir könül tikənə minnətçi olmadıq biz.*

*Qorxumuz da səndəndir, ümidimiz də səndən,*

*Biz suçluyuq, Sən kərim, suçumuzdan keçənsən.*

*Köməksizik, çarə qıl, sənsən ümid yerimiz,*

*Sən də qovsan qapından, kimə yalvararıq biz?*[1]

Fitrətən özündən daha qüdrətli və üstün varlığa möhtac olduğunu daim hiss edən insan özünün bu ehtiyacını təmin etmək üçün müxtəlif vasitələrə əl atmalı olur. Belə bir hissin insan fitrətinə yaradılışdan qoyulduğu barədə Qurani-Kərimdə buyurulur: «يا ايّها الناسُ انتم الفقراءُ الى اللهِ و اللهُ هُوَ الغنىّ الحميد» ("Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə möhtac deyil. O şükrə layiqdir!")[2] Nizami Gəncəvi öz ədəbi-irfani yaradıcılığında insan kimliyinin düzgün formalaşmasında mühüm rol ifa edən bu faktora geniş yer ayırmış və məsələyə yanaşma tərzini Quran maarifinə uyğunlaşdırmağa çalışmışdır. Dahi şair öz şeirlərində insanlara Tanrı ilə necə danışmağı, Onunla razi-niyaz etmək yollarını öyrədir. Bəndənin Tanrı qarşısında acizanə təmənna və dualar etməsi ona həyatın ağır şərtləri qarşısında səbir etmək və asudə yaşamaq gücünü qazandırır.

*Əvvəlcə torpaqdan yaratdın məni,*
*Sonra fəzilətlə caltdın məni.*
*Üzümü parlatdın, gözümə nur saç,*
*Neməti bəxş etdin, şükr dilim aç!*
*Səbir versən mənə, pis günə dözüm,*
*Qoyma xoş günümdə unudum, özün.*
*Öz hikmətlərini göstər mənə sən,*
*Qəflət pərdəsini qaldır önümdən.*
*Hər zaman fikrimin Sən ol rəhbəri,*
*Verdiyin alma sonralar geri.*
*Günahım həddindən çoxdur, bilirəm,*
*Xəcalət çəkməklə onu silirəm.*
*Bu söylədiklərimdə nə ki səhvim var,*
*Üstünə qələm çək, ey Pərvərdigar!*[3]

Dahi şair dünya həyatının çətinliklərindən, doğru yolun tək bir yoldan ibarət olduğu və bu yolu tapmaqda Tanrıdan yardım diləməyin əhəmiyyətli olduğunu bildirir.

*Yetmiş iki iz var yolumda müşkül,*
*Yetmiş biri tikan, ancaq biri gül.*
*İman cilovunu çək doğru yola,*
*Qoyma çıxsın yoldan sağa, ya sola.*
*Bu dərdli başıma lütf et, şəfa ver!*
*Əhməd türbətindən mənə dəva ver!* [4]

***Nəticə***

Dahi Azərbaycan şairi "Xəmsə"də insanların diqqətini üç mühüm məsələyə yönəltməyə çalışır. Başqa ifadə ilə desək, Nizami Gəncəvi öz ədəbi irsində bizlərə daim üç istiqamətdə hərəkətdə olmağı tövsiyə edir. Bu istiqamətlər aşağıdakılardan ibarətdir:

1- Gözəllik – incəsənət;

[1] Gəncəvi Nizami, 2008: 30
[2] Fatir: 15
[3] Gəncəvi Nizami, 2004: 32
[4] Yenə orada: 32

2- Bilik və zəka – fəlsəfə, riyaziyyat, məntiq, dəlil, əqli və idraki mühakimələrə əsaslanan elmlər;

3- Yaxşılıq – gözəl əxlaq və gözəl davranış.

İnsan əgər bir şəxsiyyət olaraq yuxarıda qeyd olunan üç istiqaməti özündə inkişaf etdirərsə, aşiqlik məqamına nail olacaqdır. Dünyanın məcazi eşqindən başlayıb, bu eşqi ali və həqiqi eşqə çevirə bilən hər bir insan bu ülvi hisslərin nəticəsində daim öz həyatından zövq alıb, digər insanlara da zövqlü anlar yaşatmaq qabiliyyətinə malik olacaqdır. Şairə görə, insan əgər istəyirsə dünya həyatından zövq ala bilsin, mütləq yaxşı bir insan olmalıdır.

Düşünürük ki, kamil insan əxlaqının təbliğatçısı olan Nizami Gəncəvinin ədəbi irsi insan əxlaqının paklığı, saflığı, təmizliyi və kamilləşdirilməsi üçün mükəmməl bir dərslikdir. Azərbaycan xalqının xoşbəxtliyi həm də ondadır ki, qılınc qəhrəmanları ilə yanaşı onun bəşəri dəyərləri və ali insan əxlaqını ən mükəmməl şəkildə təbliğ edən Nizami Gəncəvi kimi dühası vardır. Nizami insan tərbiyəsinin sonsuz olduğunu göstərir və bu tərbiyələnmənin beşikdən qəbir evinədək davam etdiyini bildirir. Beşiyinin başında Nizami nəfəsini duyan və onun şirinliyini hiss edən vətən övladlarımız Tanrı, xalq və vətən sevgisini qəbir evinədək hər şeydən üstün tutacaqlar. Şəhid və qazi düşmüş qəhrəman oğullarımız 44 günlük ikinci Qarabağ müharibəsində bu həqiqəti bütün dünyaya sübut etdilər. Dünyanın gözü qarşısında gözlərini qırpmadan ölümün gözünə dik baxan vətən oğullarımızın mənəvi saflığı, Tanrı və vətən sevgisi bütün cavanlıq hisləri üzərində qələbə çaldı və Allah qatında ən yüksək məqama, şəhidlik məqamına ucaldılar. Nizami yurdunda boya-başa çatmış, onun peyğəmbərsayağı kəlamlarını eşidib Can Azərbaycan deyərək döyüş meydanına atılmış igid oğullarımız bundan başqa cür ola bilməzdilər. Budur Nizami yaradıcılığının əsrarəngiz gücü-qüdrəti!

**ƏDƏBİYYAT**

Qurani-Kərim.

Yadigar Türkel, Nizami Gəncəvinin siyasi və dini-ideoloji baxışları, Təknur nəşriyyatı, 2010, 199 s.

Gəncəvi Nizami, 2008, Sirlər xəzinəsi, AMEA, Gəncə Regional Mərkəz, "Elm" nəşriyyatı, Gəncə, (253 səh.)

Gəncəvi Nizami, 2004, Xosrov və Şirin, Tərcümə edən: Rəsul Rza "Lider Nəşriyyat", Bakı, 392 səh.

İnternet saytları

http://drmrbiqdeli.bloqfa.com/post/121